BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2010*

# XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ İBTİDAİ VƏ ORTA TƏHSİLİN İNKİŞAFINDA AZƏRBAYCAN ZİYALILARININ ROLU

**S.N.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***Həsənova@mail.ru***

*Məqalədə XX əsrin 20-30-cu illərində təhsil sisteminin inkişafı məsələlərinə toxunulmuşdur. Əsas diqqət təhsilin inkişafında ziyalıların oynadıgı rola yetirilmişdir. Azərbaycanda yeni sovet təhsil sisteminin yaradılması çox ciddi problemlə, pedaqoji kadrların çatışmazlığı problemi ilə üzləşirdi. Müəllim çatışmazlığını aradan qaldırmaq üçün pedaqoji kurslarla yanaşı, müəllimlər seminariyalarının fəaliyyətinə də məqalədə xüsusi diqqət yetirilmişdir. Azərbaycan ziyalıları təhsilin inkişafı üçün bütün imkanların yaradılmasına çalışırdılar.*

Azərbaycan Xalq Cümhuriyyətinin devrilməsindən və Azərbaycanda sovet rejiminin bərqərar olmasından sonra təhsilin inkişafı tarixində yeni bir mərhələ başlandı. 28 aprel 1920-ci ilə qədər Azərbaycanda mövcud olan təhsil sistemindən imtina edən bolşevik rejimi yeni sovet təhsil sisteminin yaradılmasını əsas məqsədlərdən biri kimi ön plana çəkdi. Bu istiqamətdə atılan ilk addımlardan biri Azərbaycan SSR Xalq Maarif Komissarlığının yeni, sovet məktəbi yaratmaq haqqındakı 10 may 1920-ci il tarixli dekreti oldu. Dekretə əsasən «köhnə, eybəcər burjua məktəbləri» tam professional təhsil verən politexnik məktəblərlə əvəz olunmalı idi (1, 13). 26 may 1920-ci il tarixli «Azərbaycan SSR-də vahid əmək məktəbləri haqqında Əsasnamə»yə görə yeni sovet məktəbləri iki pillədən ibarət olmaqla təşkil edilirdi (10, 203). Birinci pillədə 8-13 yaşlı uşaqlar beş illik kurs, ikinci pillədə isə 13-17 yaşlı uşaqlar dörd illik kurs əsasında təhsil almalı idilər (4, v. 207).

Azərbaycanda yeni sovet təhsil sisteminin yaradılması çox ciddi problemlə, pedaqoji kadrların çatışmazlığı problemi ilə üzləşirdi. Azərbaycanda ziyalı qıtlığı problemi bir sıra köklü səbəblərlə bağlı idi. İlk növbədə, rus müstəmləkəçiliyi dövründə çarizmin milli ucqarlarda təhsilə heç bir qayğı göstərməməsi, cüzi vəsait ayırması ilə yanaşı əsrlər boyu mövcud olmuş ənənəvi milli məktəblərimizə (mollaxana və mədrəsə) soyuq münasibət XX əsrin əvvəllərində Azərbaycanda kütləvi savadsızlığa rəvac vermişdi. Digər tərəfdən AXC-nin qısa müddətli fəaliyyəti dövründə çox ciddi iqtisadi, siyasi çətinliklərə baxmayaraq təhsil sahəsində görülən böyük işlərin bolşevik işğalı nəticəsində yarımçıq qalması da təsirsiz ötüşməmişdi. Bununla bərabər sovet rejiminin onsuz da yetərincə olmayan milli ziyalılarımıza, xüsusilə də mollaxana və mədrəsə müəllimlərinə «köhnəliyin qalığı», «burjua tör-töküntüsü», «fanatizm, cəhalət daşıyıcısı» kimi damğa vuraraq onlardan imtina etməsi vəziyyəti daha da mürəkkəbləşdirirdi.

Sovet hakimiyyətinin qurulmasına qədər Azərbaycanda pedaqoqların sayı haqqında tarixi ədəbiyyatlarda müxtəlif məlumatlarla rastlaşmaq mümkündür.

Tədqiqatçı T.Musayevanın hesablamalarına əsasən 1914-cü ildə Azərbaycanda nazirliyin nəzdində fəaliyyət göstərən 976 ümumtəhsil məktəbi və 240 rus-tatar məktəbində 2572, 786 məktəb və mədrəsədə isə 822 nəfər müəllim və molla tədris prosesi ilə məşğul olurdu (16, 26). Xalq Maarif Komissarı D.Bünyadzadənin 1921-ci ilin mayında Azərbaycanın I Sovetlər qurultayında verdiyi hesabatda göstərilən məlumata görə isə sovet hakimiyyəti qurulana qədər Azərbaycanda cəmi 2000 müəllim fəaliyyət göstərirdi (16, 70). Təhsil səviyyəsinə görə onların cəmi 3%-i ali, 97%-i isə orta, aşağı və ev təhsilinə malik idi (16, 71). Qeyd olunan statistik rəqəmlər arasındakı kəskin fərqlər bolşevik rejiminin Azərbaycanın pedaqoji-ziyalı təbəqəsinin böyük bir qismini qara siyahıya daxil etməsi ilə bağlı olmuşdur. Xalq Maarif Komissarlığının din xadimlərinin pedaqoji fəaliyyətlə məşğul olmasına qadağa qoymasına baxmayaraq ziyalı kadrlara kəskin ehtiyac Azərbaycan hökumətini ilk dövrlərdə molla və qazilərin əməyindən yeni tipli məktəblərdə istifadə olunmasına məcbur edirdi. Bununla yanaşı, müəllim çatışmazlığını qısamüddət ərzində aradan qaldırmaq üçün Maarif Komissarlığı bir sıra təcili tədbirlər həyata keçirdi. Xalq Maarif Komissarlığının 16 oktyabr 1920-ci il tarixli qərarı ilə Bakı şəhərində, Sabunçu rayonunda, Şuşa, Qazax, Nuxa və Gəncə qəzalarında qısa müddətli pedaqoji kurslar açıldı (1, 39; 5, v.35). 1921-ci ildə Azərbaycanda bu qəbildən olan pedaqoji kursların sayı artıq 40-a çatırdı (6, v.3; 16, 72). Bu tip kursları bitirənlər yeni rejim dövrünün ilk pedaqoji kadrlarını təşkil edirdilər. Qısamüddətli üç aylıq pedaqoji kurslarla bərabər Maarif Komissarlığı Bakıda bir illik ali pedaqoji kurslar təşkil etmək təşəbbüsü ilə də çıxış etdi. Təbiətşünaslıq-coğrafiya, fizika-riyaziyyat və humanitar şöbələrdən ibarət olan bir illik pedaqoji kursların təşkilində Abdulla Şaiq, Həbib bəy Mahmudbəyov, Fətulla Rzabəyli, Mamed Əfəndiyev, Sadıx Hüseynov, Rəhim Cəfərov və s. kimi görkəmli Azərbaycan ziyalılarının mühüm xidmətlərini xüsusi olaraq qeyd etmək lazımdır (16, 72). Xalq Maarif Komissarlığı kollegiyasının qərarı ilə 1923-cü ildən fəaliyyətə başlayan yay pedaqoji kurslarının yay tətilləri dövründə müəllimlərin təhsil səviyyəsinin artırılması sahəsində böyük xidmətləri olmuşdu (16, 72-73).

Pedaqoji kurslarla yanaşı, müəllim çatışmazlığını aradan qaldırmaq üçün görülən tədbirlər içərisində müəllimlər seminariyalarının fəaliyyətini də qeyd etmək vacibdir. Statistik məlumatlara əsasən 1923-cü ildə Azərbaycanda 2064 nəfər tələbəsi olan 8 müəllimlər seminariyası fəaliyyət göstərirdi (7, v. 9).

Azərbaycan hökuməti böyük maddi və mənəvi çətinliklərə baxmayaraq ali və orta pedaqoji təhsil müəssisələrinin açılması istiqamətində də mühüm tədbirlər həyata keçirməyə çalışırdı. Məktəblərdə təhsilin keyfiyyətinin birbaşa ali və orta təhsilli pedaqoji kadrlardan asılı olduğunu ön plana çəkən Xalq Maarif Komissarı Z.Quliyev Azərbaycan təhsil işçilərinin 1923-cü ilin fevral ayında keçirilən qurultayında 1922-ci ildə Azərbaycanda fəaliyyət göstərən müəllimlərin yalnız 61 nəfərinin ali, 291 nəfərinin orta, qalanlarının isə qısa müddətli pedaqoji kursları bitirdiyini (11; 1, 69) vurğulayaraq qeyd edirdi ki, qarşıda duran ən mühüm vəzifələrdən biri ali təhsilli müəllimlərin hazırlanmasıdır. Bu sahədə atılan ilk addımlardan biri Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanovun Bakıda ilk pedaqoji kişı institutunun açılması haqqında 1921-ci il 26 avqust tarixli dekreti oldu (10).

Azərbaycan SSR XKS-nin 1 sentyabr 1921-ci il tarixli qərarında II dərəcəli

məktəblər üçün müəllimlər hazırlamaq məqsədilə Azərbaycan dövlət kişi institutunun təsis edilməsi nəzərdə tutulurdu (2, 67).

Xüsusi komissiyanın fəaliyyəti nəticəsində 1921-ci ilin noyabrında fizika-riyaziyyat, təbiət-kimya və ədəbiyyat fakültələrindən ibarət Ali kişi pedaqoji institutu açıldı və institutun direktoru görkəmli Azərbaycan ziyalısı Fətulla Rzabəyli təyin edildi (16, 94). 1923-24-cü tədris ilində bu institutu bitirmiş ilk 28 müəllim müəllimlər seminariyaları arasında bölüşdürüldü. Ali kişi institutu ilə bir vaxtda yaradılmış məktəbəqədər tərbiyə üzrə qadın institutu 1922-ci ilin noyabrında Azərbaycan qadın pedaqoji institutuna çevrildi. A.Makinskayanın rəhbərlik etdiyi bu institutda 1923-24-cü tədris ilində 90 tələbə təhsil alırdı (15, 38). Azərbaycan SSR XKS-nin 3 aprel 1923-cü il tarixli qərarı ilə qadın və kişi institutları birləşdirildi (16, 95).

Azərbaycan hökuməti ziyalı kadrların sayının artırılması ilə yanaşı, təhsil işçilərinin mənəvi və maddi rifah halının təminatı baxımından da təsirli tədbirlər görməyə çalışırdı. Azərbaycan SSR İnqilab Komitəsinin 9 sentyabr 1920-ci il tarixli qərarı ilə müəllimlər, pedaqoji kursların dinləyiciləri və məktəb şagirdləri hərbi mükəlləfiyyətdən azad edilirdilər. İnqilab Komitəsinin 17 sentyabr 1920-ci il tarixli «Maarif işçilərinin səfərbərliyi haqqında» dekreti ilə maarif işçiləri birinci dərəcəli ərzaq təminatı hüququ əldə edirdilər. Təhsil işçiləri əmək mükəlləfiyyətindən azad edilməklə yanaşı, onların əmlakının müsadirəsi qadağan edilirdi. Dekretə əsasən maarif işçilərinin Xalq Maarif Komissarlığının razılığı olmadan həbs edilməsinə, saxlanılmasına, axtarışına icazə verilmirdi (1, 24-25). Doğrudur, bir çox hallarda bunlara əməl olunmasa da,bu dövlətin təhsil işçilərinə xüsusi qayğı ilə yanaşmasının real göstəricilərindən biri kimi az əhəmiyyətli deyildi. Təhsil sahəsində görülən tədbirlər qısa müddət ərzində müəyyən kəmiyyət və keyfiyyət göstəricilərinin yaranmasına gətirib çıxarmışdı. Belə ki, Xalq Maarif Komissarı M.Z.Quliyevin 7 dekabr 1924-cü il tarixli hesabatında Respublikanın birinci dərəcəli 990 məktəbində 90587 şagird və 2987 müəllimin, ikinci dərəcəli 37 məktəbdə isə 4736 şagird və 307 müəllimin fəaliyyət göstərməsi haqqında məlumatı (1, 96) bunu bir daha sübut edir. Azərbaycan XKS-nin sədri Q.M.Musabəyovun 11 mart 1925-ci il tarixli məruzəsində verilmiş tam dəqiq olmayan məlumatlar da əvvəlki dövrlə müqayisədə Azərbaycanda məktəb və şagirdlərin sayının kəskin şəkildə artdığını göstərir. Həmin məlumata görə I Dünya müharibəsinə qədər Azərbaycanda 728 məktəb 56 min şagird olduğu halda, 1925-ci ildə onların sayı müvafiq olaraq 1303 və 129 minə çatmışdı (14, 33). Onu da qeyd etmək lazımdır ki, bu artımın hamısını bolşevik rejiminin xidmətinə yazaraq Azərbaycan Xalq Cümhuriyyətinin 1918-1920-ci illərdə təhsil sahəsindəki fəaliyyətini unutmaq ən azı tarixi ədalətsizlik olardı. XMK-nın 1928-ci il tarixli məlumatları 1925-ci illə müqayisədə məktəb, şagird və pedaqoji personalın sayının xeyli artdığını göstərirdi. Belə ki, 1928-ci ilin statistik məlumatlarına əsasən Azərbaycanda I dərəcəli 1378 məktəbdə 139294 şagird, 4161 müəllim, II dərəcəli 35 məktəbdə 10222 şagird, 557 müəllim, yeddiyaşlı uşaqların təhsil aldığı 39 məktəbdə 14956 şagird, 560 müəllim, doqquzyaşlı uşaqların təhsil aldığı 8 məktəbdə 5749 şagird, 258 müəllim, kəndli gənclər üçün təşkil edilmiş 14 məktəbdə 642 şagird və 64 müəllim fəaliyyət göstərirdi.

XX əsrin 20-ci illərində dövlət büdcəsindən təhsilə ayrılan vəsaitin dinami-

kası da təhsil siyasətinə xüsusi diqqət verildiyini göstərir. 1924-1925-ci illərdə dövlət büdcəsindən təhsilə ayrılan vəsait adambaşına 5 rubl. 46 qəpik təşkil etdiyi halda, 1928-1929-cu illərdə bu rəqəm iki dəfədən də çox artaraq 11 rubl. 39 qəpiyə bərabər olmuşdu (1, 156-159).

Respublikamızda ibtidai ümumtəhsilə keçilməsi haqqında qərar Azərbaycan hökumətinin təhsil sahəsində mühüm addımlarından biri oldu. Azərbaycan MİK-nin 5-ci çağırış III sessiyanın 29 may 1928-ci il tarixli qətnaməsində 1927-28-ci təhsil ilindən etibarən on il müddətində Azərbaycanda ibtidai ümumtəhsil sisteminin tətbiqi nəzərdə tutulurdu (1, 45). 1928-ci ilin avqustunda Bakıda və şəhərin fabrik-zavod rayonunda, 1930/31-ci illərdə Gəncə, Salyan, Zaqatala, Nuxa və Şirvan bölgələrində tətbiq edilən ibtidai ümumtəhsil sistemi 1932/33-cü təhsil illərində Respublikanın bütün rayonlarında həyata keçirilməyə başladı (16, s.150-151). İbtidai ümumtəhsilə keçilməsi ciddi çətinliklərlə, xüsusilə də məktəb binalarının və pedaqoji kadrların çatışmazlığı ilə müşayiət olunurdu.

XX əsrin 30-cu illərinin əvvəllərində məscid və kilsələrin kütləvi şəkildə məktəb və digər mədəniyyət binalarına çevrilməsi hərəkatı ciddi narazılıqlara səbəb olurdu. Pedaqoji kadr qıtlığının aradan qaldırılması istiqamətində görülən tədbirlər nəticəsində I beşillik dövründə müəllimlərin sayı xeyli artmışdı. Statistik məlumatlara görə 1928-1929-cu tədris ilində Respublikada 5617 müəllim var idisə, 1932-1933-cü illərdə onların sayı artıq 10432 nəfərə qədər artmışdı (13, 24).

«Azərbaycan SSR-də ümumi ibtidai icbari təhsilin həyata keçirilməsi haqqında» Azərbaycan SSR XKS-nin 29 avqust 1930-cu il tarixli qərarı təhsil siyasətində yeni bir mərhələnin başlanğıcı oldu. Qərara əsasən 1930-1931-ci illərdə Azərbaycanın bütün şəhərlərində və şəhərtipli yaşayış məntəqələrində, 1931-1932-ci illərdə isə bütün rayonlarında 8, 9, 10 yaşlı uşaqlar ümumi ibtidai icbari təhsilə cəlb edilməli idi. XKS-nin qərarında Xalq Maarif Komissarlığına 1930-1931-ci illərdə 1136, 1931/1932-ci illərdə 1217, 1932/1933-cü illərdə 1451 nəfər pedaqoq hazırlanması tapşırığı verilmişdi (12). Qarşıya qoyulan bu mühüm vəzifələri həyata keçirmək üçün dövlət büdcəsindən Xalq Maarif Komissarlığına 1930-1931-ci illərdə 27.254.723 rubl, 1931-1932-ci illərdə 36.160.791 rubl, 1932-1933-cü illərdə ısə 45.323.406 rubl vəsait ayrılması nəzərdə tutulurdu (1, 193).

XX əsrin 30-cu illərində təhsil sahəsində həyata keçirilən mühüm tədbirlərdən biri də Xalq Maarif Komissarlığının yenidən təşkil edilməsi ilə bağlı oldu. Azərbaycan MİK və XKS-nin 25 noyabr 1933-cü il tarixli qətnaməsinə əsasən XMK-nin köhnə strukturu ləğv edilirdi. Maarif Komissarlığının yeni strukturunun tərkibində yaradılmış beş idarədən biri bilavasitə ibtidai və orta məktəblərin, biri isə müəllimlərin hazırlanması məsələləri ilə məşğul olmalı idi (3, 17-18). Həyata keçirilən tədbirlər pedaqoji kadrların kəmiyyət və keyfiyyət göstəricilərində də öz əksini tapırdı. Xalq Maarif Komissarlığının 10 aprel 1936-cı il tarixli hesabatına əsasən 1934-35-ci tədris ilində Azərbaycanda 10897 müəllim fəaliyyət göstərirdi ki, onların 952-si ali, 590-ı natamam ali, 5678-i orta, 3677-si aşağı təhsilə malik idi (8, v.3-10). 1935-36-cı tədris ilinin statistikasına görə isə Respublikanın ibtidai və orta məktəblərində çalışan 11105 müəllimin 1141 nəfəri ali, 8390-1 orta, 1574 nəfəri isə aşağı təhsil səviyyəsinə malik idi.

Statistik məlumatların təhlili göstərir ki, I Dünya müharibəsinə qədər Azərbaycanda fəaliyyət göstərən 976 məktəbin mütləq əksəriyyətini (943-nü) ibtidai,

18-ni natamam orta, yalnız 15-ni orta məktəblər təşkil edirdisə, artıq Böyük Vətən müharibəsi ərəfəsində bu mənzərə kökündən dəyişmişdi. Belə ki, 1940/41-ci tədris ilində Azərbaycanda qeydə alınan 3575 məktəbin 1668-i ibtidai, 1240-ı natamam orta, 654-ü isə orta məktəblərdən ibarət olmuşdu. 1914-1915-ci illərlə müqayisədə Azərbaycanda məktəblərin sayı təqribən dörd dəfəyə qədər artmışdı. Bu müddət ərzində məktəblərdə təhsil alan şagird kontingentinin sayında artım isə daha böyük olmuşdu. Statistikaya əsasən 1914/15-ci tədris ilində Azərbaycan məktəblərində 73109 şagird təhsil alırdısa, 1940/41-ci tədris ilində isə onların sayı təqribən doqquz dəfəyədək artaraq 654902 nəfərə çatmışdı. Çox maraqlı məqamlardan biri də ondan ibarətdir ki, I Dünya müharibəsi ərəfəsində, həmçinin sovet rejiminin ilk dövründə (1920-1930-cu illər arasında) Azərbaycanın şagird kontingentinin əksəriyyətini ibtidai məktəblərdə təhsil alanlar təşkil edirdi. Statistika göstərir ki, 1914-1915-ci ildə Azərbaycanda 73109 şagirdin 61949 nəfəri, 1929-30-cu tədris ilində isə 213047 şagirdin 139753 nəfəri ibtidai məktəblərdə təhsil almışdır. 1930/31-ci tədris ilindən başlayaraq bu mənzərə kəskin şəkildə dəyişməyə başlamışdı. Belə ki, 1930/31-ci tədris ilindən etibarən şagirdlər daha çox natamam orta və orta təhsil almağa üstünlük verməyə başlamış və bu meyl sonrakı illərdə daha da güclənmişdi.

Statistik məlumatlara görə, 1930/31-ci tədris ilində Azərbaycanda qeydə alınan 278636 şagirdin 171859 nəfəri ibtidai, 91036 nəfəri natamam orta (yeddiillik), 13791 nəfəri isə orta məktəblərdə təhsil alırdısa, 1940/41-ci tədris ilində qeydə alınan 654902 şagirdin 102334 nəfəri ibtidai, 229290 nəfəri natamam orta, 321447 nəfəri, başqa sözlə, təqribən yarısı isə orta məktəblərdə təhsil alanlardan ibarət olmuşdu (9; 13). 1939-cu ilin 1 yanvar tarixinə görə Respublikanın təhsil müəssisələrində ümumilikdə 19 min nəfər müəllti işləyirdi ki, bunun da cəmi 2098 nəfəri azərbaycanlı idi (17, 309). 30-cu illərin sonunda Azərbaycan iqtisadiyyatında çalışan 47800 nəfər ixtisaslı kadrın sadəcə olaraq 8000-i azərbaycanlı idi (18, 667).

XX əsrin 20-30-cu illərində Azərbaycanda təhsilin kütləvi xarakter alması, onun keyfiyyət səviyyəsinin yüksəlməsində Azərbaycan ziyalılarının əvəzsiz xidmətləri olmuşdu. 1914/15-ci tədris ilində Azərbaycanda cəmi 2614 müəllim qeydə alınmışdısa, 1940/41-ci tədris ilində onların sayı təqribən on dəfə artaraq 22016 nəfərə çatmışdı. Görülən tədbirlərə baxmayaraq Böyük Vətən müharibəsi ərəfəsində Azərbaycanda pedaqoji kadrlara həm də böyük ehtiyac var idi, mövcud pedaqoji kadrların təhsil səviyyəsi tələblərə cavab vermirdi. Onların mühüm bir hissəsi natamam orta, hətta aşağı təhsil səviyyəsinə malik idilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan arxivi. № 1-2. Bakı: 1975
2. Azərbaycan arxivi. № 1-2. Bakı: 1978
3. Azərbaycan arxivi. № 1-2. Bakı: 1987
4. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA) Fond 57. siy. 1, sənəd. 23
5. ARDA. Fond 57. siy. 1, sənəd 151
6. ARDA. Fond 57. siy. 1, sənəd 134
7. ARDA. Fond 57. siy. 1, sənəd 257
8. ARDA. Fond 57. siy. 1, sənəd 211
9. ARDA. Fond 2511 siy. 3, sənəd 94
10. Azərbaycan tarixi 7 cilddə. VI c., Bakı: Azərnəşr, 200, 516.

11. Газ.«Бакинский рабочий», № 38, 1923, 18 февраля.
12. Газ. «Бакинский рабочий», № 204, 1930, 1 сентября.
13. Культурное сотрудничество Азербайджанской ССР/Сб. стат. Баку, 1961, 151-156 с.
14. Четвертый всеазербайджанский съезд Советов рабочих, красноармейских и матросских депутатов. Стенографический отчет. Баку: 1975, 271 с.
15. Летопись Высшего педагогического института. Баку, 1924, 104 с.
16. Мусаева Т.А. Революция и народное образование в Азербайджане. Баку, 1979, 254 с.
17. Исмайылов Э. Очерки по истории Азербайджана. М.: Просвещение, 2010, 424 с
18. Türk Kafkazında siyasi ve etnik yapı. Eski çağlardan günümüze Azerbaycan tarihi. Prof. Dr. İsmail Mehmetov, İstanbul: 2009, 853 s.

## РОЛЬ ИНТЕЛЛИГЕНЦИИ В РАЗВИТИИ НАЧАЛЬНОГО И СРЕДНЕГО ОБРАЗОВАНИЯ В 20- 30-Х ГОДАХ ХХ ВЕКА

**С.Н.ГАСАНОВА**

**РЕЗЮМЕ**

В данной статье суть заключается в развитии системы образования 20-30-х годах XX века. Автор в статье описывает основную роль интеллигенции в развитии образо-вания. Интеллигенция считала, что всю роль в развитии образования несут молодые кадры и для этого интеллигенция создавала все возможности для развития образования.

## THE ROLE OF INTELLIGENTSIA IN THE DEVELOPMENT OF ELEMENTARY AND SECONDARY EDUCATION IN 20-30s OF THE XX CENTURY

**S.N. HASANOVA**

**SUMMARY**

The present article elucidates the development of the education system in 20-30s of the XX century. The author describes the key role of intelligentsia in the development of education. Intelligentsia considered that the whole role in the development of education is vested in young specialists, and created all possibilities for the development of education for this purpose.